**Dünyanın, o cümlədən qədim və zəngin Azərbaycan tarixinin çox mühüm dövrünü ən qiymətli təbii sərvətlərdən sayılan neftin kəşf olunması, hasilatı, emalı və istifadəsi təşkil edir. Azərbaycan istər quruda, istərsə də dənizdə neftçıxarmanın vətəni sayılır. Neft təbii sərvət olaraq əcdadlarımıza neolit dövründən məlumdur. Dünya elmi neft və qaz kimi təbii sərvətlərin insanlara təxminən 8000 il bundan öncə məlum olduğunu təsdiq edir.**

# Azərbaycan milli neft tarixinə mühüm töhfə

Qədim şumerlər nefti "esir" adlandırırdılar ki, mənası "nurlu su" deməkdir. Dünya neft və qaz sənayesinin inkişafında Vətənimiz Azərbaycanın müstəsna rolu olmuş və bu gün də beləydir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan tarixin bütün mərhələlərində qonşu dövlətlərin maraq dairəsində olmuş və bunun nəticəsində çoxsaylı hərbi təcavüzlərin və işğalların obyektinə çevrilmişdir. Bu hərbi təcavüz və işğallar zamanı neft və ondan alınan müxtəlif məhsullar xalqımızın düşmən üzərində qələbəsində həlledici rol oynamışdır.




XIX əsrin ikinci yarısından başlayaraq, neft, xüsusilə Azərbaycan nefti, ölkələri özlərinin müstəmləkələrinə çevirən böyük dövlətlər və onların maliyyə maqnatların əsas rəqabət sahəsinə çevrilir və onlar Azərbaycan neftinə böyük maraq göstərməyə başlayırlar. 1873-cü ildən etibarən Bakı neftinə maraq göstərən Avropa dövlətlərinin maliyyə dairələri, ilk növbədə, Nobellər, Rotşildlər, ingilis, çar Rusiyası, o cümlədən milli kapitalın nümayəndələri buraya yatırım qoyur və bu hətta ABŞ-n ən böyük maliyyə maqnatı Con Pokfelleri də diqqətini cəlb edir. Artıq hamıya məlumdur ki, XIX əsrin əvvəlində Bakı dünya neft hasilatının 52 faizini, çar Rusiyasında hasil edilən neftin 95 faizini verirdi. O dövrdə çar Rusiyasının maliyyə naziri olmuş Sergey Vittenin sözləri ilə desək: "Bakı nefti çar Rusiyası iqtisadiyyatı üçün məlhəm rolunu oynayırdı" və təbii olaraq sual yaranır, bu sərvətin yerləşdiyi ərazi necə müəyyən edilir, necə hasil olunur və bu sahə ilə məşğul olan elm sahəsi necə adlanırdı? Bütün bu suallara cavab Azərbaycan milli neft sənayesində uzun illər çalışan, öz ixtisasının mükəmməl bilicisi olan, milli tariximizin qızıl səhifəsi sayılan ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən neft strategiyasının - "Əsrin müqaviləsi"nin hazırlanması və imzalanması prosesinin bilavasitə iştirakçısı olmuş **neftçi-geoloq, istedadlı və fədakar tədqiqatçı Rafiq Abdullayevin "Azərbaycan nefti-tarixə baxış" ikicildlik əsərində verilmişdir.** Ensiklopedik xarakter daşıyan bu əsərin I cildi V, ikinci cildi isə IV fəsildən ibarətdir. Müəllif bu əsəri yazarkən bütün mənbələrdən, mövcud elmi ədəbiyyatdan, rəsmi dövlət və arxiv sənədlərindən, bütün dövrlərə aid mətbuat materiallarından istifadə etmişdir. Monoqrafiyanın 611 səhifəlik I cildində müəllif Azərbaycan neft geologiyası və geofizikasının, qazma sənayesinin, neft emalı, neft-kimya sahələrinin, neftin və qazın nəqlinin və digər infrastruktur sahələrinin yaranması və inkişafı tarixinin çox geniş mənzərəsini vermişdir. Əsərin **I fəsli "Azərbaycanda neft geologiyasının yaranması və inkişafı"** adlanır və 17 paraqrafdan ibarətdir. Burada müəllif qədim zamanlardan bu günədək geoloji biliklərin meydana gəlməsi, qədim, antik, ilk və orta əsrlər, yeni və ən yeni dövr müəllifləri: qədim yunan, Roma, ərəb-fars, türk və Avropa müəllifləri, geologiyanın bir elm sahəsi kimi yaranması və formalaşması, həm də neft-qaz geologiyasının, xüsusilə Şimali Azərbaycanda XIX-XX əsrlərdə müstəqil bir elm sahəsi kimi yaranması və inkişafı tarixi haqqında bütün təfərrüatı ilə istinad etdiyi mənbələr və sənədlər əsasında məlumat vermişdir. Monoqrafiyanın I cildində müəllif XIX əsrin II yarısından başlayaraq, çar Rusiyası, AXC, Sovet Rusiyası və SSRİ hakimiyyəti və dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasında neft-qaz geologiyası sahəsinin yaranması, formalaşması və inkişafı prosesini həm quruda və həm də Xəzər dənizi sularının təkində neft və qaz yataqlarının, Abşeron yarımadasında palçıq vulkanlarının meydana gəlməsi və burada "Yanardağ" və "Qırməki" təbiət abidələrinin yaranmasından bəhs edir.

Monoqrafiyanın **II fəsli "Azərbaycanda neft geofizikası sahəsinin yaranması və inkişafı"** adlanır və 3 paraqrafdan ibarətdir. Burada müəllif XIX əsrin II yarısından başlayaraq, bu günədək Şimali Azərbaycanda neft-qaz geofizikası sahəsinin yaranması və inkişafı tarixinin bütün mərhələlərini tarixi-xronoloji ardıcıllıqla vermişdir. Monoqrafiyanın **I cildinin III fəsli "Azərbaycanda neft quyularının qazılmasının tarixi"** adlanır və 6 paraqrafdan ibarətdir. Abşeron yarımadasında neft quyularının mövcudluğu barədə hələ IX əsrdə ərəb mənbələrində rast gəlinsə də lakin bu quyuların daha qədim dövrlərdə qazıldığı və istifadə olunduğu heç bir şübhə doğurmur. Neftin əldə edilməsi üçün quyuların qazılmasında kankan üsulu o dövr üçün yüksək səviyyəyə çatdırılsa da yüzillərlə dəyişməz qalırdı. Bu fəsildə müəllif Şimali Azərbaycanda neft quyularının qazılmasının ən sadə üsullarından başlayaraq, bu günədək tətbiq edilən ən müasir texnologiyanın nəticələrindən və ilk dəfə dünyada neft quyularının həm quruda, həm də dənizdə məhz Azərbaycanda həyata keçirildiyini ayrıca olaraq qeyd edir. Monoqrafiyanın **IV fəsli "Azərbaycanda neftin və qazın emalının tarixi"** adlanır və bu fəsil 5 paraqrafdan ibarət olub, adından da göründüyü kimi, Azərbaycanda neft-qazın emalı sənayesinin yaranması və inkişafı tarixinə həsr olunmuşdur. Ərəb mənbələri Abşeronda neft emalının hələ XII əsrin əvvəllərində mövcud olduğunu qeyd etmişlər. Bu fəsildə müəllif Azərbaycan milli neft sənayesinin bu sahəsinin həm də dünya ölkələrində neft emalı sənayesinin yaranması və inkişafı tarixinə də yer vermişdir. Monoqrafiyanın **I cildinin V fəsli "Azərbaycanda kimya və neft-kimya sənayesinin inkişafı tarixi"** adlanır. Bu fəsil milli neft sənayesinin yeni sahəsinin - neft-kimya sənayesinin yaranması və inkişafı tarixinə həsr edilmişdir. Bu fəslə müəllif qədim və orta əsrlərdə Şərq və Avropa ölkələrində əlkimya adladan dövrdən əvvəl, onun mövcud olduğu dövr və ənənəvi kimya ilə məşğul olan orta və XIX əsr daxil olmaqla, yeni dövr Şərq və Avropa müəllifləri haqqında çox dəqiq və sanballı məlumatlar vermişdir. Müəllif həm də bu sahənin mühüm bir istiqamətinin - neft-kimya elminin yaranması və inkişafı tarixini də əlavə etmişdir.

Əsərin **II cildi VI fəsillə başlayır və "Azərbaycanda neftin, neft məhsullarının və qazın nəqli və saxlanılması tarixi"** adlanır. 13 paraqrafdan ibarət bu fəsildə müəllif Şimali Azərbaycanda ən qədim zamanlardan başlayaraq, bu günədək hasil edilən neft və neft məhsullarının ölkə daxilində və dünya bazarlarına ixracı tarixinə həsr etmişdir. Burada tarixi İpək Yolundan başlayaraq, müasir beynəlxalq əsas ixrac neft kəmərləri vasitəsilə Azərbaycandan neft və neft məhsullarının nəqli məsələlərinin tarixinə geniş yer verilmişdir.

Monoqrafiyanın **VII fəsli** çox maraqlı məsələyə: böyük dövlətlər arasında enerji resursları uğrunda mübarizə tarixinə həsr edilmişdir və **"Neft və qaz bazarları uğrunda mübarizə"** adlanır. Bu fəsil XIX əsrin 80-ci illəri - XX əsrin 20-ci illərinədək Azərbaycan neftinin və neft məsullarının dünya bazarındakı rolunu və müstəqillik əldə etdikdən sonra müasir dövrdə Azərbaycan nefti və qazının dünya neft bazarlarında oynadığı mühüm rolu ehtiva edir.

Monoqrafiyanın **II cildinin VIII fəsli "Neftin və qazın qədimdə istifadəsi tarixi"** adlanır və 3 paraqrafdan ibarətdir. Burada müəllif ilk dəfə neft və qazdan istifadə işinin qədim, antik, orta əsrlər, yeni və ən yeni dövrlərdə bu enerji resurslarının məkanı kimi Azərbaycan Respublikasında necə həyata keçirildiyini ön plana çəkir və bu işin hazırda dünya iqtisadiyyatına, siyasətinə və beynəlxalq münasibətlərə necə təsir göstərdiyini qeyd edir.

Əsərin **II cildinin sonuncu - IX fəsli "Neft və qaz amilinin neft-qaz sənayesinin digər sahələrinə və infrastrukturunun inkişafına, habelə sənayenin başqa sahələrinin inkişafına təsiri"** adlanır. Bu fəsildə müəllif adından da göründüyü kimi, neft-qaz sənayesinin Azərbaycanın iqtisadi həyatında oynadığı roldan bəhs edir, neft-maşınqayırma, energetika, metallurgiya və digər sənaye sahələrinin sürətlə və əsaslı təşəkkül tapmasının birbaşa neft-qaz sənayesi ilə bağlı olduğunu yazır. Neftçi-geoloq və istedadlı tədqiqatçı Rafiq Abdullayevin II cildlik "Azərbaycan nefti-tarixə baxış" kitabı milli neft elmimizin inkişaf tarixinə həsr olunmuş ilk sanballı ensiklopedik əsərdir və hərtərəfli tədqiqat nəticəsində ərsəyə gəlmişdir. ARDNŞ-in maliyyə yardımı ilə nəşr olunmuş bu II cildlik monoqrafiya Azərbaycan milli neft sənayesinin tarixinə həsr olunacaq əsərlər yazılarkən bir mənbə, həm də ali və orta təhsil ocaqlarında dərs vəsaiti kimi istifadə oluna bilər. Azərbaycan Respublikasının Pezidenti cənab İlham Əliyevin Azərbaycan Neft Muzeyinin yaradılması ilə bağlı 4 fevral 2008-ci ildə imzaladığı Sərəncamı qeyd etmək istəyirəm.

"Bu sərəncamdan irəli gələn məsələlər ARDNŞ-də müzakirə olunmuş və muzeyin yaradılması ilə bağlı əsas istiqamətlər müəyyən edilmişdir. Onu da əlavə edim ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamının yerinə yetirilməsi siyasi, elmi və tarixi əhəmiyyət kəsb edir. Bu muzeyin yaradılmasında Rafiq Abdullayevin II cildlik "Azərbaycan nefti - tarixə baxış" kitabından tarixi-xronoloji ardıcıllığı gözləmək şərti ilə istifadə olunsa, çox zəngin materiallar əsasında bütün dövrlər, sahələr və istiqamətlər üzrə ekpozisiyaların yaradılması mümkündür.

**İbrahim QULİYEV,**
**AMEA-nın vitse-prezidenti, akademik.**
**Cəbi BƏHRAMOV,**
**t.ü.f.d.,dosent.**

Respublika .- 2025.- 24 may (№107).- S.14.